# “Jurnalistika” ixtisası

## ABİTURİYENTLƏRİN YAZACAQLARI İNŞAYA (ESSEYƏ) QOYULAN TƏLƏBLƏR

**Hörmətli abituriyentlər!**

“Jurnalistika” ixtisasına qəbul olunmaq üçün III ixtisas qrupunun DT altqrupu üzrə test imtahanı vermiş, müsabiqə şərtini ödəyən və sorğu vərəqi dolduraraq qeydiyyatdan keçmiş abituriyentlər qabiliyyət imtahanı mərhələsində təqdim olunmuş üç mövzudan ixtiyari birini seçməklə inşa (esse) yazacaqlar. İnşa (esse) abituriyentin imtahan verdiyi bölməyə uyğun olaraq Azərbaycan və ya rus dilində yazılmalıdır.

İnşa (esse) abituriyentin seçmiş mövzu üzrə öz nöqteyi-nəzərini əsaslandırılmış şəkildə ifadə etdiyi müstəqil, yaradıcı yazı işidir. Abituriyentlərə ictimai-siyasi, iqtisadi, mədəni həyat sahələrinə aid, həmçinin respublikamız, görkəmli şəxsiyyətlər, təhsil, ixtisas seçimi, ətraf mühit, mənəviyyat və eləcə də bütün bəşəriyyəti düşündürən qlobal problemlər haqqında müstəqil mühakimə yürütmək və əsaslandırmaq bacarığını nümayiş etdirməyə imkan verən sərbəst mövzular təklif olunur.

İnşa (esse) yazarkən abituriyent:

- səliqəli, oxunaqlı və aydın xətlə yazmalı;
- öz fikirlərini aydın və savadlı şəkildə ifadə etməli;
- mövzunun mahiyyətini açmalı və dolğun əhatə etməli;
- yazının tərkib hissələri (giriş, əsas hissə və nəticə) arasında məntiqi rabitə yaratmalı, abzaslarla fərqləndirməli və fikirlərini məntiqi ardıcıllıqla ifadə etməli;
- ictimai-siyasi problemlərə yaxşı bələd olduğunu nümayiş etdirməli;
- ictimai-siyasi problemləri təhliletmə, ümumiləşdirmə və məntiqi nəticəçıxarma qabiliyyətini nümayiş etdirməli;
- fikir və düşüncələrini anlaşıqlı, məntiqli, rabitəli və aydın surətdə, ədəbi dilin normalarına (qrammatika, orfoqrafiya, durğu işarələrinin işlənməsi qaydalarına) uyğun olaraq ifadə etməli, öz fikir və mühakimələrini əsaslandırmaq üçün mövzuya uyğun 3 və daha çox sitat, iqtibas, nümunə və faktlardan (tarixi hadisələr, bədii parçalar, həyat hadisələri və s.) istifadə etməlidir.

Yazı işinin qiymətləndirilməsi zamanı inşanın məzmunu, yazı savadı, həmçinin aşağıdakı meyarlar nəzərə alınır:

- İnşa (esse) 2–4 səhifə (ən azı 2 səhifə və ya 420 söz) həcmində olmalıdır.
- verilmiş mövzunun başa düşülməsi, abituriyentin mövzu üzrə material, əsas fakt və hadisələr haqqında məlumata malik olması;
- abituriyentin mövzuya orijinal yanaşması, öz nöqteyi-nəzərini əsaslandırılmış şəkildə ifadə etmək bacarığı, mövzunun əhatə olunma

səviyyəsi, fikirlərin aydın və anlaşıqlı ifadə olunması;
- çıxarılan nəticələrin məntiqli və əsaslandırılmış olması;
- yazı üslubunun orijinallığı, dilin zənginliyi, obrazlılığı və səlisliyi, savadlılıq səviyyəsi;
- yazı işinin ədəbi dilin fonetik (orfoqrafiya və durğu işarələri), qrammatik və leksik normalarına tam riayət edilməklə yazılması.

Yazı işi yuxarıdakı meyarlar nəzərə alınmaqla "məqbul" və ya "qeyri-məqbul"la qiymətləndirilir.

"Qeyri-məqbul" qiyməti mövzunun zəif əhatə olunduğu və ya heç əhatə olunmadığı, abituriyentin mövzunu səthi bildiyini və ya heç bilmədiyini aşkara çıxaran, seçilmiş mövzuya uyğun yazılmayan, mətnin hissələri arasında məntiqi əlaqənin pozulduğu, abituriyentin özü haqqında hər hansı məlumat yazdığı və ya işarə qoyduğu, 8 və daha çox dil və nitq səhvi olan yazılara verilir.

Yazı işində abituriyentlərin özləri haqqında hər hansı məlumat (ad, soyad, ata adı, baba adı, məktəb adı, müəllim adı, yaşayış yeri və s.) yazması və ya özlərini tanıtmaqla bağlı hər hansısa işarə qoyması qadağandır. Belə hala yol vermiş abituriyentlərin yazı işləri "sıfır" balla qiymətləndirilir. Seçdiyi mövzudan fərqli mövzuda, həmçinin 1 səhifədən (190 sözdən) az həcmdə yazılmış inşalar da "sıfır" balla qiymətləndirilir.

***Qeyd:*** İmtahanın müddəti 2 saat 30 dəqiqədir.

**Abituriyentlərə təklif olunacaq inşa mövzularına aid nümunələr**

1. Müstəqilliyimiz əbədidir
2. Azərbaycanın dövlət rəmzləri
3. Mən Azərbaycan vətəndaşıyam
4. Azərbaycan mənim Vətənimdir
5. Heydər Əliyev ümummilli liderimizdir
6. Ölkəmizdə dövlət dili Azərbaycan dilidir
7. "Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini, dövlət dilini mükəmməl bilməlidir!" (H.Əliyev)
8. 1 Avqust Azərbaycan əlifbası və Azərbaycan dili günüdür
9. İnternetdən istifadə sənə nə verir?
10. Hansı sənət yaxşıdır?
11. Azərbaycanın gələcəyi haqqında düşüncələrim
12. Sevdiyim fənn
13. Necə insan olmaq istərdim?
14. Mən həkim olsa idim ...
15. Mən millət vəkili olsa idim ...
16. Dostuma məktub
17. Xalqımızın milli bayramı – Novruz
18. Azərbaycanın təbiəti
19. Əsl dost necə olmalıdır?

20. Kitab dostumuz və məsləhətçimizdir
21. Şəxsi kitabxanam
22. Təhsil uğurlu gələcəyə aparan yoldur
23. Sevdiyim qəzet (və ya jurnal)
24. Musiqi ruhumuzun qidasıdır
25. Sözün qüdrəti
26. Peşə seçiminin insan həyatında rolu
27. Həyatda necə uğur qazanmaq olar?
28. Cəmiyyət üçün faydalı insan necə olmalıdır?
29. Sevdiyim bədii əsər
30. Sevdiyim yazıçı (şair)
31. Müasir gəncliyin gündəlik qayğıları
32. Milli Qəhrəmanlarımız
33. Xoşbəxtliyi nədə görürəm?
34. Milli adət-ənənələrimiz
35. Müasir gəncliyin vəzifələri
36. Keçmişimiz, bu günümüz və gələcəyimiz
37. Azərbaycan gənci müstəqil dövlətimizin fəal qurucusu olmalıdır
38. “Bir kərə yüksələn bayraq bir daha enməz!” (M.Ə.Rəsulzadə)
39. Mübariz İbrahimov gəncliyə örnəkdir
40. Tarixi zəfərimiz qürur mənbəyimizdir
41. Qarabağ Azərbaycandır!
42. 8 noyabr – Şanlı zəfər tariximiz!
43. Zəfər yolu!
44. İkinci Qarabağ müharibəsi
45. 44 günlük Vətən müharibəsi
46. Tarixdə iz qoyan şəxsiyyətlər
47. Sevdiyim tarixi şəxsiyyət
48. Müasirlərimi necə görmək istərdim?
49. Vətənə xidmətin əhəmiyyətini nədə görürəm?
50. Şəhid abidəsi önündə
51. 20 Yanvar – xalqımızın qan yaddaşı
52. “Şəhidlər xiyabanı”nı ziyarət edərkən düşündüklərim
53. Xocalı faciəsi insanlıq əleyhinə cinayətdir
54. Qarabağla bağlı bildiklərim
55. Müəllim və şagird arasında münasibətlər necə olmalıdır?
56. Sağlam bədəndə sağlam ruh olar
57. Neftimiz sərvətimizdir
58. Gənclərin cəmiyyətdə rolunu artırmaq üçün nələri təklif edərdim?
59. "Əkinçi" ilə başlanan milli mətbuatımız
60. Gələcəyimi necə görürəm?

61. Mətbuat azadlığı nədir?
62. Tariximizin şanlı səhifəsi – Azərbaycan Xalq Cümhuriyyəti
63. Ən çox izlədiyim televiziya kanalı
64. Sevdiyim jurnalist
65. Tanınmış Azərbaycan jurnalistləri
66. Şəhid jurnalistlər
67. İzlədiyim xəbər saytları
68. Oxuduğum sonuncu əsər
69. İnformasiyanın həyatımızda rolu
70. Özümdə hansı xarakter və xüsusiyyətləri tərbiyə etmək istəyirəm?
71. Həyatımızda kitabların rolu
72. Konstitusiyamız
73. Sevdiyim idman növü
74. Namus və vicdan mövzusunda düşüncələrim
75. Valideynlə övlad arasında münasibətlər necə olmalıdır?
76. İnsan həyatında biliyin rolu
77. Müasir insan necə olmalıdır?
78. Əsl vətəndaş necə olmalıdır?
79. Mərhəmətli olmaq nə deməkdir?
80. Azad insan olmaq nə deməkdir?
81. Təbiətin həyatımızda rolu
82. Faydalı insan odur ki ...
83. Əgər prezident olsa idim ...
84. Necə bir qəzet yaratmaq istərdim?
85. Müasir televiziya kanallarında ən çox sevdiyiniz proqramlar
86. Jurnalist peşəsi və sosial məsuliyyət
87. Jurnalistikanı nəyə görə "dördüncü hakimiyyət" adlandırırlar?
88. KİV və ictimai rəy
89. Müasir jurnalistikada şərəf və ləyaqətin müdafiəsi problemi
90. Şəhərimin (kəndimin) tarixi
91. Jurnalist olsam, hansı mövzularda yazacağam?
92. Əgər gənclər üçün telekanal yaratsam ...
93. Hamının oxumalı olduğu kitab
94. "Hər bir insan bütün insanlar qarşısında hamıya və hər şeyə görə məsuliyyət daşıyır." (F.M.Dostoyevski)
95. Yazacağım oçerkə kimi qəhrəman seçərdim?
96. Mənim ictimai mövqeyim
97. Zərərli vərdişlər
98. Tolerantlıq nə deməkdir?
99. Müasir məktəbin problemləri
100. Gənclər siyasəti və KİV

101. Müasir cəmiyyətin mənəviyyatı
102. KİV-də sağlam həyat tərzinin təbliği
103. Bəşəriyyətin əsas qlobal problemləri
104. Qocalara hörmət edək, özümüz də qocalacağıq
105. Əsl ziyalı necə olmalıdır?
106. "İnsan dünyada varlı olmaq üçün yox, xoşbəxt olmaq üçün yaşayır" (F.Stendal)
107. Müasirlərim haqqında düşüncələrim
108. Uğurlu insan olmaq nə deməkdir?
109. Jurnalistin əsas keyfiyyətləri
110. Müasir dünyada jurnalistikanın rolu
111. Jurnalistin peşə etikasını necə başa düşürəm?
112. Jurnalist peşəsi məni hansı cəhətlərinə görə cəlb edir?
113. Jurnalistika mədəniyyətə necə təsir göstərir?
114. Müasir həyatımızda internetin rolu
115. İnsanlar televiziya xəbərlərinə nəyə görə baxırlar?
116. Radio və televiziyada faydalı verilişlər
117. Jurnalistikada ən çox xoşladığım mövzular
118. Mətbuat azadlığını necə başa düşürəm?
119. Müasir jurnalist necə olmalıdır?
120. Sevdiyim qəhrəman
121. "Sağlığında qiymət verin insanlara..." (C.Novruz)
122. "Yurdum, yuvam, məskənimsən... Azərbaycan!" (S.Vurğun)
123. Sevimli ədəbi qəhrəmanım
124. Mənim üçrəngli bayrağım
125. Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir
126. Mən Vətənimin inkişafına hansı töhfəni verməyə hazıram
127. Xarici ölkədə yaşayan yaşıdıma məktubumda ölkəmiz haqqında nə yazardım?
128. Azərbaycan bütün dünya azərbaycanlılarının vətənidir
129. Azərbaycanın inkişafında neftin rolu
130. Azərbaycanın inkişafında qeyri-neft sektorunun rolu
131. Sevdiyim bayram
132. Sevdiyim bəstəkar
133. Doğma şəhərimi (kəndimi) gələcəkdə necə görmək istərdim?
134. Bakı Azərbaycanın paytaxtıdır
135. Əcnəbi turistə doğma Vətənimiz haqqında nə söyləyərdim?
136. Təbiəti qorumaq borcumuzdur
137. Azərbaycanın təbii sərvətləri
138. Ətraf mühitin qorunması sağlamlığın rəhnidir
139. Ana müqəddəs varlıqdır

140. Yaşlılara və uşaqlara qayğı göstərmək mənəvi borcumuzdur
141. Həyatın mənasını nədə görürəm?
142. İnsan nəyə görə qanunlara riayət etməlidir?
143. "Düzlük ən yaxşı siyasətdir" ifadəsi nə deməkdir?
144. İnsan əməlləri ilə tanınır
145. Uğura aparan yol zəhmətdən keçir
146. "Kitabi-Dədə Qorqud" yurdumuzun tarixi salnaməsidir
147. Cəmiyyətin inkişafında liderlərin rolu
148. Xalqımız sülh tərəfdarıdır
149. Çiçəklənən Azərbaycan
150. Dostu qazanmaq çətin, itirmək asandır
151. Xeyirxahlıq nəcib insani keyfiyyətdir
152. Əsl insan hansı keyfiyyətlərə malik olmalıdır?
153. Azərbaycanın görməli yerləri
154. Ana dilimizi sevək və qoruyaq
155. Azərbaycan sərkərdələri haqqında bildiklərim
156. İdmanın insan həyatı üçün əhəmiyyəti
157. Ölkəmizdə turizm
158. Təhsilin cəmiyyətin inkişafında rolu
159. Jurnalistikanın hansı sahəsi məni daha çox cəlb edir?
160. Xeyriyyəçilik gözəl ənənədir
161. "Vətən mənə oğul desə, nə dərdim, Mamır olub, qayasında bitərdim." (M.Araz)
162. "Vətənçin yaşayan, vətənçin ölən, Səmimi bir insan nə bəxtiyardır!" (M.Müşfiq)
163. "Qüvvət elmdədir, başqa cür heç kəs, Heç kəsə üstünlük eyləyə bilməz." (N.Gəncəvi)
164. "Könlümün sevgili məhbubu mənim, Vətənimdir, vətənimdir, vətənim..." (A.Səhhət)
165. "Bilikli adamlar uzağı görər, cahilin zəhməti hədərdir, hədər." (N.Gəncəvi)
166. "Hər uca rütbədən biliniz fəqət, alimin rütbəsi ucadır əlbət." (N.Gəncəvi)
167. Yaxşı bir film çəkmək üçün hansı amillər olmalıdır? Fikirlərinizi əsaslandırın.
168. Müasir texnologiya həyatı daha da rahatlaşdırıb, yoxsa həyat sadə texnologiyalarla daha yaxşı idi? Fikirlərinizi əsaslandırın.
169. İnternet vasitəsilə insanlar bir-birinə daha çox yaxınlaşıblar, yoxsa uzaqlaşıblar? Fikirlərinizi əsaslandırın.
170. Təhsil hər bir ölkənin inkişafında ən mühüm amildir. Bu fikirlə bağlı razı olduğunuz və razı olmadığınız məqamları yazın. Fikirlərinizi əsaslandırın.
171. "Xarici dil uşaqlara bağçadan öyrədilməyə başlanılmalıdır" fikri ilə bağlı razı olduğunuz və razı olmadığınız məqamları yazın. Fikirlərinizi

əsaslandırın.

172. Uşaqların hər gün kompüter ilə məşğul olmasının onlara müsbət təsirindən daha çox mənfi təsiri ola bilər. Bu fikirlə bağlı razı olduğunuz və razı olmadığınız məqamları yazın. Fikirlərinizi əsaslandırın.
173. "Televiziya verilişlərini izləmək uşaqlar üçün faydalı deyil" fikri ilə bağlı razı olduğunuz və razı olmadığınız məqamları yazın. Fikirlərinizi əsaslandırın.
174. "Üz-üzə ünsiyyət telefon, sosial şəbəkələr (Facebook, Twitter, WhatsApp və s.), məktub, elektron məktub (e-mail) və s. kimi ünsiyyət vasitələrindən daha yaxşıdır" fikri ilə bağlı razı olduğunuz və razı olmadığınız məqamları yazın. Fikirlərinizi əsaslandırın.
175. "Müasir texnologiyalar vasitəsilə şagirdlər daha çox məlumat əldə edə bilir və daha sürətlə öyrənirlər" fikri ilə bağlı razı olduğunuz və razı olmadığınız məqamları yazın. Fikirlərinizi əsaslandırın.
176. "Televiziya, qəzet, jurnal və digər media vasitələri ictimai xadimlər və hadisələrdən daha çox sənətçilərin həyatına diqqət yetirirlər" fikri ilə bağlı razı olduğunuz və razı olmadığınız məqamları yazın. Fikirlərinizi əsaslandırın.
177. "Valideynlər ən yaxşı müəllimlərdir" fikri ilə bağlı razı olduğunuz və razı olmadığınız məqamları yazın. Fikirlərinizi əsaslandırın.
178. "Kitab oxumaq kinoya baxmaqdan daha maraqlıdır" fikri ilə bağlı razı olduğunuz və razı olmadığınız məqamları yazın. Fikirlərinizi əsaslandırın.
179. Əgər siz beynəlxalq sərgiyə dövlətimizi təmsil edən bir şey göndərməli olsanız, nə seçərdiniz? Niyə? Seçiminizi izah etmək üçün konkret faktlar və dəlillər gətirin.
180. Xalqımızın hansı adətini digər xalqların da qəbul etməsini istəyərdiniz? Seçiminizi izah etmək üçün konkret faktlar və dəlillər gətirin.
181. Əgər siz yeni bir şey ixtira etsə idiniz, bu nə ilə bağlı olardı və nəyi ixtira edərdiniz? Seçiminizi izah etmək üçün konkret faktlar və dəlillər gətirin.
182. Əgər siz bir şirkətin müdiri olsa idiniz, hansı xüsusiyyətlərə malik işçiləri işə götürərdiniz? Seçiminizi izah etmək üçün konkret faktlar və dəlillər gətirin.
183. Əgər sizin tarixin müəyyən bir dövrünə qayıtmaq imkanınız olsa idi, bu hansı dövr olardı? Seçiminizi izah etmək üçün konkret faktlar və dəlillər gətirin.
184. İnsanlar fərqli metodlarla öyrənirlər: işləməklə, oxumaqla, dinləməklə və s. Öyrənmək üçün bu yollardan hansı sizin üçün ən yaxşıdır? Seçiminizi izah etmək üçün konkret faktlar və dəlillər gətirin.
185. İnsana verilən ən gözəl hədiyyə nə ola bilər? Seçiminizi izah etmək üçün konkret faktlar və dəlillər gətirin.
186. Bəzi insanlar qrup halında səyahət etməyi sevir, bəziləri isə təklikdə. Siz

hansına üstünlük verirsiniz? Seçiminizi izah etmək üçün konkret faktlar və dəlillər gətirin.

187. Bəzi şagirdlər qrup halında təhsil almağı sevir, bəziləri isə fərdi. Siz hansına üstünlük verirsiniz? Seçiminizi izah etmək üçün konkret faktlar və dəlillər gətirin.
188. İnsanlar müxtəlif zamanlarda fərqli səbəblərlə musiqiyə qulaq asırlar. Bəs nəyə görə musiqi dinləmək bu qədər vacib sayılır? Fikirlərinizi dəlillərlə əsaslandırın.
189. Bəzi insanlar dost seçərkən özlərindən fərqli dost seçirlər, bəziləri isə özlərinə oxşar. Özündən fərqli və özünə oxşar dostların olmasının müsbət və mənfi cəhətlərini müqayisə edin. Bəs siz necə dosta sahib olmaq istərdiniz? Fikirlərinizi əsaslandırın.
190. Əgər sizə məktəbinizdə ciddi dəyişiklik etmək imkanı verilsə idi, bu dəyişikliklər nələrdən ibarət olardı? Fikirlərinizi əsaslandırın.
191. Bəzi insanlar inanırlar ki, həyat haqqında öyrənməyin ən yaxşı yolu ailənin, yaxud da dostların məsləhətlərinə qulaq asmaqdır. Digər insanlar isə düşünürlər ki, həyatı öyrənməyin ən yaxşı yolu şəxsi təcrübədir. Həyatı öyrənməyin bu iki fərqli yolunu müqayisə edin. Siz hansına üstünlük verərdiniz? Fikirlərinizi əsaslandırın.
192. Bütün dünyada kino çox populyardır. Kinoların niyə belə populyar olduğunu izah edin və fikirlərinizi əsaslandırın.
193. Turizm ölkələr arasında qarşılıqlı anlaşma və ünsiyyətə necə kömək edir? Fikirlərinizi əsaslandırın.
194. Yaxşı övlad olmaq üçün hansı xüsusiyyətlərə malik olmaq lazımdır? Fikirlərinizi əsaslandırın.
195. “İdman orta məktəb həyatının ayrılmaz hissəsi olmalıdır” fikri ilə bağlı razı olduğunuz və razı olmadığınız məqamları yazın. Fikirlərinizi əsaslandırın.
196. Elektron və məktəb kitabxanalarının müsbət və mənfi tərəflərini müqayisə edin. Fikirlərinizi əsaslandırın.
197. İnsanlar nə üçün işləməlidirlər? Fikirlərinizi əsaslandırın.
198. Valideynlər övladlarının əvəzinə qərar verməlidirlər, yoxsa yox? Fikirlərinizi əsaslandırın.
199. Sizə görə, son 100 ilin ən vacib kəşfi hansıdır? Fikirlərinizi dəlillərlə əsaslandırın.
200. İnsanın xarakterinin formalaşmasına dostlar, yoxsa ailə daha çox təsir göstərir? Fikirlərinizi əsaslandırın.
201. Xarici, yoxsa daxili gözəlliyi üstün tutursunuz? Seçiminizi əsaslandırın.
202. “İnsanı geyiminə görə qarşılayır, ağlına görə yola salırlar” fikrini izah edin.
203. “Yaxşı dost yaman gündə tanınar” atalar sözünü necə başa düşürsünüz?

204. İşçilərin yaradıcılıq potensialı şirkətin inkişafında mühüm rol oynayır. İşçilərin yaradıcılıq qabiliyyətini artırmaq üçün şirkətlər nələr etməlidir?
205. Şəxsi avtomobillərin artması ilə yanaşı, yollarda tıxac problemləri də artır. Həm hökumət, həm də insanlar bu problemin qarşısını almaq üçün nələr edə bilərlər?
206. Bəzi inkişafda olan ölkələrdə kənd yerlərindən şəhər yerlərinə axın var. Sizcə, bu nəyə görə baş verir və bu hansı problemlərdən irəli gəlir?
207. Qabaqcıl təhsil müəssisələrindən məzun olmaq yaxşı işə girməyə zəmanət verir. Siz bu fikirlə razısınız, yoxsa yox? Cavabı əsaslandırın.
208. Müasir dövrdə bir çox ailədə valideynlərin hər ikisi işlədiyindən övladları ilə az vaxt keçirirlər. Bunun səbəbi nədir və bu hansı problemlərə gətirib çıxara bilər?
209. Həyatınızdakı ən cəsur an
210. Xarakterinizdə nəyi dəyişmək istərdiniz?
211. Biz uğurlu davranışlarımızdan, yoxsa etdiyimiz səhvlərdən daha çox nəticə çıxarıb öyrənirik? Seçdiyiniz fikri əsaslandırın.
212. Orta məktəbdə şagirdlərə mobil telefondan istifadə etməyə icazə verilməlidir, yoxsa yox. Seçdiyiniz fikri əsaslandırın.
213. Uşağın xarakteri valideynlərindən gördükləri davranışlar əsasında formalaşır. Siz bununla razısınızmı? Hansı amillər uşağın xarakterinə təsir edir?
214. Sağlam olmağın ən yaxşı yolu idman etməkdir. Siz bu fikirlə razısınız, yoxsa başqa təklifləriniz də var?
215. Sağlamlıq üçün piyada gəzmək olduqca faydalıdır, ancaq çox az insan piyada gəzir. Bu problemin səbəbi nədir və siz bu problemlərin aradan qalxması üçün nələri təklif edərsiniz?
216. Mediada göstərilən zorakılıq halları sanki insanları daha da zorakılıq etməyə təşviq edir. Bu mövzuda nə düşünürsünüz?
217. Bir çox cəmiyyətdə evsiz insanlar (yaxud da kasıbçılıq) problemi var. Siz bu problemin qarşısını almaq üçün nələr təklif edərdiniz?
218. Bəzi insanlar düşünürlər ki, ali məktəblər şəhərlərin mərkəzlərindən uzaq yerlərdə – şəhərətrafı ərazilərdə olmalıdır. Siz bu fikir haqqında nə düşünürsünüz?
219. Bəzi insanlar düşünürlər ki, pul xoşbəxt olmaq üçün vasitə deyil. Sizcə, xoşbəxt olmaq üçün nə etmək və nələrə sahib olmaq lazımdır?
220. Xəbərlər insanların həyatında mühüm rol oynayır. Ancaq xəbərlərin bir çoxu mənfi hadisələrdən ibarətdir. Siz bunun haqqında nə düşünürsünüz?

# İNŞANIN (ESSENİN) QİYMƏTLƏNDİRMƏ MEYARLARI

*Qiymətləndirmə 5 komponent üzrə 10 balliq şkala ilə aparilir.*
*Məqbul qiymət almaq üçün abituriyent minimum 5 bal toplamalidir.*

**A**

**2 bal** - həcmi 2 səhifədən (ən azı 420 söz) çoxdur (tam 2 səhifə bura aid deyil);
- tərkib hissələrinin (giriş, əsas hissə və nəticə) hər biri ayrı-ayrı abzaslarla fərqləndirilməklə əhatə olunub.

***Qeyd: Hər iki bəndin şərti ödənilərsə, 2 balla qiymətləndirilir.***

**1 bal** - həcmi ən azı 1 səhifədir (tam 2 səhifə də bura aiddir) (ən azı 190 söz);
- tərkib hissələrindən ən azı əsas hissə olmaqla inşa əhatə olunub.

***Qeyd: Hər iki bəndin şərti ödənilirsə, 1 balla qiymətləndirilir.***

**0 bal** - həcmi 1 səhifədən azdır (190 sözdən az);

***Qeyd: A bəndi "0" balla qiymətləndirilirsə, B, C, D, E bəndləri qiymətləndirilmir və yekuna "0" bal yazılır.***

**B**

**2 bal** - inşa mövzuya uyğun yazılıb və ifadə olunan fikirlər ardıcıllıqla verilib; mövzu ilə bağlı sərbəst mühakimə yürüdülüb.

**1 bal** - mövzu qənaətbəxş səviyyədə əhatə olunub, cüzi kənaraçıxma var, mövzu ilə bağlı olmayan fikirlərə yer verilib;
- ifadə olunan fikirlər ardıcıl ifadə olunmayıb.

**0 bal** - mövzu qənaətbəxş səviyyədə əhatə olunmayıb, nəzərəçarpacaq dərəcədə kənara çıxılıb;
- mövzu ilə bağlı müstəqil mühakimə yurüdülməyib.

***Qeyd: B bəndi "0" balla qiymətləndirilirsə, C, D, E bəndləri qiymətləndirilmir.***

**C**

**2 bal** - ifadə olunan fikirləri əsaslandırmaq üçün sitat, nümunə (nümunə götürülən insanlar), fakt, tarixi hadisə, bədii parçalar, həyat hadisələri və ya başqa mənbələrdən (ən azı 3 ədəd) yerli-yerində istifadə edilib;
- istifadə olunan fakt və nümunələr mövzuya tam uyğundur.

**1 bal** - fikri əsaslandırmaq üçün sitat, nümunə, fakt, tarixi hadisə, bədii parçalar, həyat hadisələri və ya başqa mənbələrdən qənaətbəxş istifadə edilib, lakin onların sayı azdır (1-2 ədəd) və ya mövzu ilə zəif əlaqələndirilib;

**0 bal** - fikri əsaslandırmaq üçün sitat, nümunə, fakt, tarixi hadisə, bədii parçalar, həyat hadisələri və ya başqa mənbələrdən istifadə edilməyib və ya istifadə olunanlar mövzuya uyğun deyil.

***Qeyd: Eyni mənbədən müxtəlif məqamlarda işlədilmiş müxtəlif bəndlər, beytlər, aforizimlər və digər nümunələrin hər biri ayrılıqda bir fakt sayılır.***

***Qeyd: Bir fakta (hadisəyə) aid bir neçə nümunə (ad və s.) ardıcıl olaraq sadalanarsa hamısı birlikdə 1 (bir) fakt kimi hesab edilir. Məsələn: Klassik Azərbaycan şairləri Nizami Gəncəvi, Əfsələddin Xaqani, Məhəmməd Füzuli və s. sadalanan adların hamısı 1(bir) fakt kimi götürülür.***

**D**

**2 bal** - söz ehtiyatı zəngin, nitq ifadəli və obrazlı (sinonimlər, antonimlər, epitet, təşbeh, metafor, metonimiya, bədii ifadə vasitələri və s.), üslub orijinaldır, yersiz təkrarlara yer verilmir;

**1 bal** - söz ehtiyatı qənaətbəxşdir (nitq və üslub quru və sxematikdir; obrazlılıq zəifdir);

**0 bal** - söz ehtiyatı qənaətbəxş deyil (nitq və üslub yeknəsəq və bəsitdir), yersiz təkrarçılığa çox yer verilir.

**E**

**2 bal** - 2 səhifədən çox olduqda inşada yol verilmiş səhvlərin (orfoqrafik (sözlərin düzgün yazılışı), leksik (sözün yerində düzgün istifadə edilməməsi, məsələn, quş qaçdı yox, quş uçdu), qrammatik (qrammatik qaydalar, məsələn, uşaqların çoxu gəldilər yox, gəldi), durğu işarəsi (durğu işarələrindən düzgün istifadə edilməsi: “o, bu” əvəzliyi, köməkçi nitq hissələri, xitablar və s.), faktoloji (faktarın təhrif edilməsi)) sayı 0-8-dir.

**1 bal** - 2 səhifədən çox olduqda inşada yol verilmiş səhvlərin (orfoqrafik, leksik, qrammatik, durğu işarəsi, faktoloji) sayı ümumilikdə 9-16-dıır.

**0 bal** - 2 səhifədən çox olduqda inşada yol verilmiş səhvlərin (orfoqrafik, leksik, qrammatik, durğu işarəsi, faktoloji) sayı ümumilikdə 17 və ya daha çoxdur.

**2 bal** - həcm 1-2 səhifə (tam 2 səhifədə bura aiddir) olduqda inşada yol verilmiş səhvlərin (orfoqrafik (sözlərin düzgün yazılışı), leksik (sözün yerində düzgün istifadə edilməməsi, məsələn, quş qaçdı yox, quş uçdu), qrammatik (qrammatik qaydalar, məsələn, uşaqların çoxu gəldilər yox, gəldi), durğu işarəsi (durğu işarələrindən düzgün istifadə edilməsi: “o, bu” əvəzliyi, köməkçi nitq hissələri, xitablar və s.), faktoloji (faktarın təhrif edilməsi)) sayı 0-5-dir.

**1 bal** - həcm 1-2 səhifə (tam 2 səhifədə bura aiddir) olduqda inşada yol verilmiş səhvlərin (orfoqrafik, leksik, qrammatik, durğu işarəsi, faktoloji) sayı ümumilikdə 6-10-dur.

**0 bal** - həcm 1-2 səhifə (tam 2 səhifədə bura aiddir) olduqda inşada yol verilmiş səhvlərin (orfoqrafik, leksik, qrammatik, durğu işarəsi, faktoloji) sayı ümumilikdə 11 və ya daha çoxdur.

***Qeyd: Eyni dil qaydalarına aid təkrarlanan səhvlər 1 (bir) səhv hesab edilir.***

Məsələn, hər dəfə “ki” bağlayıcısından sonra vergül qoyulmursa, bu bir səhv kimi qəbul edilir. Ancaq vergüllə bağlı fərqli məqamlarda digər səhvlər edilirsə, bunlar ayrı-ayrı səhv kimi qəbul edilir.

# ТРЕБОВАНИЯ К НАПИСАНИЮ СОЧИНЕНИЯ (ЭССЕ)

**Уважаемые абитуриенты!**

Для поступления в ВУЗ по специальности «Журналистика», абитуриенты, сдавшие тестовые экзамены по подгруппе DT III группы специальностей и выполнившие условия конкурса, заполнив анкетный лист и прошедшие регистрацию, на этапе экзамена по выявлению особых способностей, будут писать сочинение (эссе), произвольно выбрав одну из предложенных тем. В соответствии с выбранным сектором, сочинение (эссе) должно быть написано на азербайджанском или русском языке.

Сочинение (эссе), написанное по выбранной теме, является самостоятельной, творческой письменной работой, в которой абитуриент обоснованно выражает свою собственную точку зрения. Абитуриентам будут предложены темы по общественно-политическим, экономическим и культурным отраслям жизни, по образованию, по выбору специальности, темы о нашей Республике, о выдающихся личностях, об окружающей среде, морально-нравственные и произвольные темы, создающие возможность продемонстрировать способность самостоятельно и аргументированно излагать свои мысли-рассуждения на глобальные темы, волнующие всё человечество.

При написании сочинения (эссе):

- почерк должен быть аккуратным, четким и разборчивым;
- мысли должны быть выражены четко и грамотно;
- тема должна быть раскрыта полностью;
- должна быть создана логическая связь между содержательными частями текста (вступление, основная часть и заключение), выделяя их абзацами, а мысли должны выражаться логически последовательно;
- абитуриенты должны показать своё знание социально-политических проблем;
- абитуриенты должны продемонстрировать умение анализировать социально-политические проблемы, обобщать и строить логические умозаключения;
- мысли должны быть ясными, логичными, связными, должны соблюдаться нормы русского литературного языка, в том числе грамматика, орфография, пунктуация и стилистика. Для подтверждения своей точки зрения должны быть приведены 3 и более соответствующие цитаты, примера и факта (историческое событие, художественный отрывок, случай из жизни и т.д.).

При оценивании содержания сочинения (эссе), должны учитываться грамотность и выполнение следующих критериев:

- объем сочинения (эссе) – 2-4 страницы (минимум 2 страницы или 420 слов);
- глубина понимания темы, соответствие фактов и событий выбранной теме;
- оригинальность стиля в раскрытии темы, умение аргументированно излагать свою точку зрения, ясно выражать свои мысли;
- логичность и обоснованность выводов;
- язык письма должен быть оригинальным, богатым, образным и грамотным;
- соблюдение нормы орфографии, грамматики, пунктуации и лексики русского литературного языка.

Соблюдая, приведенные выше критерии, эссе будет оцениваться отметками «зачтено» или «не зачтено».

«Не зачтено» ставится в случае, если тема не полностью или вообще не раскрыта, имеются некоторые отклонения от темы, между содержательными частями нет логической связи; если абитуриент дает какую-то информацию о себе, имеется 8 и более языковых и стилистических ошибок.

Использование в сочинении (эссе) каких-то сведений о себе (имя, фамилия, имя отца, имя дедушки, номер школы, имя педагога, место жительства и т.д.), различных служащих для опознавания знаков, запрещено. В таких случаях работа абитуриента оценивается в «ноль» баллов. Если сочинение (эссе) написано не на выбранную тему, охват текста меньше 2 страниц (190 слов), то эссе также оценивается в «ноль» баллов.

**Примечание**: Продолжительность экзамена 2 часа 30 минут.

**Образцы тем сочинений, предлагаемых абитуриентам**

1. Наша независимость вечна
2. Государственные символы Азербайджана
3. Я гражданин Азербайджана
4. Азербайджан – моя Родина
5. Гейдар Алиев – наш общенациональный лидер
6. Азербайджанский язык – государственный язык нашей страны
7. «Каждый гражданин Азербайджана, каждый азербайджанец должен знать в совершенстве свой родной язык, язык своего государства» (Г.Алиев)
8. 1 августа – день Азербайджанского алфавита и Азербайджанского языка
9. Что дает тебе использование интернета?
10. Какая профессия лучше?
11. Мои размышления о будущем Азербайджана
12. Мой любимый предмет
13. Каким человеком я хотел бы стать?

14. Если бы я был врачом …
15. Если бы я был депутатом …
16. Письмо другу
17. Новруз – национальный праздник нашего народа
18. Природа Азербайджана
19. Каким должен быть настоящий друг?
20. Книга – наш друг и советчик
21. Моя личная библиотека
22. Образование – дорога, ведущая к успешному будущему
23. Моя любимая газета (журнал)
24. Музыка – наша духовная пища
25. Сила слова
26. Роль выбора профессии в жизни человека
27. Как можно добиться успеха в жизни?
28. Каким должен быть человек, полезный для общества?
29. Моё любимое художественное произведение
30. Мой любимый писатель (поэт)
31. Повседневные заботы современной молодёжи
32. Наши национальные герои
33. В чём я вижу счастье?
34. Наши национальные обычаи и традиции
35. Обязанности современной молодёжи
36. Наше прошлое, настоящее и будущее
37. Азербайджанская молодёжь – активный строитель нашего независимого государства
38. «Однажды поднятый флаг никогда не опустится!» (М.Э.Расулзаде)
39. Мубариз Ибрагимов – пример для молодёжи
40. Наша историческая победа – источник нашей гордости!
41. Карабах – это Азербайджан!
42. 8 ноября – дата славной победы!
43. Путь к победе!
44. Вторая Карабахская война
45. 44-дневная Отечественная война
46. Личности, оставившие след в истории
47. Моя любимая историческая личность
48. Какими бы я хотел видеть своих современников?
49. В чём я вижу значение служения Родине?
50. Перед памятником шехиду
51. 20 января – дата, вписанная кровью в память нашего народа
52. О чём я размышляю, посещая Аллею шехидов
53. Трагедия Ходжалы – преступление против человечества
54. Что я знаю о Карабахе?
55. Какими должны быть отношения между учителем и учениками?
56. В здоровом теле – здоровый дух

57. Нефть – наше богатство
58. Что бы я предложил для повышения роли молодёжи в обществе?
59. Наша национальная печать, берущая начало с газеты «Экинчи»
60. Как я вижу своё будущее?
61. Что такое свобода печати?
62. Славная страница нашей истории: Азербайджанская Демократическая Республика
63. Мой самый любимый телевизионный канал
64. Мой любимый журналист
65. Известные азербайджанские журналисты
66. Журналисты – шехиды
67. Интересующие меня сайты новостей
68. Последнее прочитанное мною произведение
69. Роль информации в нашей жизни
70. Какие черты характера я хочу в себе воспитать?
71. Какова роль книг в нашей жизни?
72. Наша Конституция
73. Мой любимый вид спорта
74. Мои размышления о чести и совести
75. Отношения между родителями и детьми
76. Роль знаний в жизни человека
77. Каким должен быть современный человек?
78. Каким должен быть настоящий гражданин?
79. Что значит быть милосердным?
80. Что значит быть свободным человеком?
81. Какую роль играет природа в нашей жизни?
82. Полезный человек – это …
83. Если бы я был президентом …
84. Какую газету, хотел бы создать я
85. Ваши самые любимые передачи на современных телевизионных каналах
86. Профессия журналиста и социальная ответственность
87. Почему журналистику называют «четвёртой властью»?
88. СМИ и общественное мнение
89. Проблема защиты чести и достоинства в современной журналистике
90. История моего города (деревни)
91. На какие темы я буду писать, если стану журналистом?
92. Если бы я создал молодежный телеканал ...
93. Книга, которую должен прочитать каждый
94. «Каждый человек несет ответственность перед всеми людьми за всех людей и за все.» (Ф.М. Достоевский)
95. Кто был бы героем моего очерка?
96. Моя общественная позиция
97. Вредные привычки

98. Что означает толерантность?
99. Проблемы современной школы
100. Молодежная политика и СМИ
101. Мораль современного общества
102. Пропаганда здорового образа жизни в СМИ
103. Глобальные проблемы человечества
104. Давайте уважать пожилых, чтобы нас уважали в будущем
105. Каким должен быть настоящий интеллигентный человек?
106. «Человек живет на земле не для того, чтобы стать богатым, а для того, чтобы стать счастливым.» (Ф.Стендаль)
107. Размышления о моих современниках
108. Что значит быть успешным человеком в жизни?
109. Главные качества журналиста
110. Роль журналистики в современном мире
111. Как я понимаю профессиональную этику журналиста?
112. Чем привлекает меня профессия журналиста?
113. Как воздействует журналистика на культуру?
114. Роль интернета в нашей современной жизни
115. Зачем люди смотрят телевизионные новости?
116. Полезные программы на радио и телевидении
117. Мои самые любимые темы в журналистике
118. Как я понимаю свободу печати.
119. Каким должен быть современный журналист?
120. Мой любимый герой
121. При жизни цените людей ... (Дж.Новруз)
122. Ты — дыханье мое, ты — мой хлеб и вода ... Азербайджан! (С.Вургун)
123. Мой любимый литературный герой
124. Мой трёхцветный флаг
125. Карабах – неотъемлемая часть Азербайджана.
126. Какой вклад я готов внести в развитие своей Родины?
127. Что бы я написал о нашей стране в письме моему сверстнику, живущему за границей
128. Азербайджан – Родина азербайджанцев всего мира
129. Роль нефти в развитии Азербайджана
130. Роль ненефтяного сектора в развитии Азербайджана
131. Мой любимый праздник
132. Мой любимый композитор
133. Каким бы мне хотелось видеть родной город (деревню) в будущем?
134. Баку – столица Азербайджана
135. Что бы я рассказал иностранному туристу о своей Родине?
136. Защита природы – наш долг
137. Природные богатства Азербайджана
138. Охрана окружающей среды – залог здоровья
139. Мать – священная ценность

140. Забота о пожилых и детях – наш моральный долг
141. В чем я вижу смысл жизни?
142. Почему человек должен подчиняться законам?
143. Что означает выражение «Честность – самая лучшая политика»?
144. Человек познается по поступкам
145. Путь к успеху проходит через труд
146. «Китаби Деде Коркуд» – историческая летопись нашей Родины
147. Роль лидеров в развитии общества
148. Наш народ – сторонник мира
149. Цветущий Азербайджан
150. Друга легко потерять, но трудно приобрести
151. Благородство – высокое человеческое качество
152. Какими качествами должен обладать настоящий человек?
153. Достопримечательности Азербайджана
154. Будем любить и беречь наш родной язык
155. Что я знаю о полководцах Азербайджана
156. Важность спорта в жизни человека
157. Туризм в нашей стране
158. Роль образования в развитии общества
159. Какая сфера журналистики привлекает меня больше?
160. Благотворительность – хорошая традиция
161. «Коль Родина сыном меня назовет, И на скалах ее быть травинкою рад.» (М.Араз)
162. «Счастлив тот, кто живет ради Родины и умирает за нее. Как счастлив искренний человек» (М.Мушвиг)
163. «Сила в науке: по–другому ни один человек не сможет превзойти другого.» (Н.Гянджеви)
164. «Родина – любовь всей моей жизни.» (А.Саххат)
165. «Ученые являются дальновидными, чего нельзя сказать о невеждах.» ( Н.Гянджеви)
166. «Ученый чин – выше любых рангов.» (Н.Гянджеви)
167. Каким требованиям должен соответствовать хороший фильм? Обоснуйте свои мысли.
168. Современные технологии сделали нашу жизнь комфортней или со старыми технологиями жизнь лучше была? Обоснуйте свои мысли.
169. С помощью интернета люди сблизились друг с другом, а может, наоборот, отдалились? Обоснуйте свои мысли.
170. Образование является важным фактором в развитии страны. С какими положениями этого утверждения Вы согласны, а с какими - нет? Обоснуйте свои мысли.
171. Обучение детей иностранному языку необходимо начинать с дошкольного возраста. С какими положениями этого утверждения Вы согласны, а с какими - нет? Обоснуйте свои мысли.

172. Ежедневное использование компьютера может оказать на детей больше отрицательное влияние, чем положительное. С какими положениями этого утверждения Вы согласны, а с какими - нет? Обоснуйте свои мысли.
173. «Детям неполезно смотреть телевизионные передачи». С какими положениями этого утверждения Вы согласны, а с какими - нет? Обоснуйте свои мысли.
174. «Личное общение лучше общения по телефону, в социальных сетях (facebook, twitter, WhatsApp и т.д.), по почте, электронной почте (e-mail) и других средств». С какими положениями этого утверждения Вы согласны, а с какими - нет? Обоснуйте свои мысли.
175. «С помощью современных технологий, ученики имеют возможность получить больше информации и познают намного быстрее.» С какими положениями этого утверждения Вы согласны, а с какими - нет? Обоснуйте свои мысли.
176. «Телевидение, газеты, журналы и другие средства массовой информации уделяют большее внимание жизни знаменитостей из сферы искусства, чем общественным деятелям и событиям». С какими положениями этого утверждения Вы согласны, а с какими - нет? Обоснуйте свои мысли.
177. «Родители - лучшие учителя». С какими положениями этого утверждения Вы согласны, а с какими - нет? Обоснуйте свои мысли.
178. «Чтение интереснее просмотра фильма». С какими положениями этого утверждения Вы согласны, а с какими - нет? Обоснуйте свои мысли.
179. Что вы послали бы на международную выставку, представляя свою страну? Почему? Чтобы объяснить свой выбор предъявите конкретные факты и аргументы.
180. Какой обычай нашей страны вы хотели бы, чтобы был принят в других странах? Чтобы объяснить свой выбор предъявите конкретные факты и аргументы.
181. Если бы вы изобрели что-нибудь новое, с чем было бы это связано и что бы вы изобрели? Чтобы объяснить свой выбор предъявите конкретные факты и аргументы.
182. Если бы вы были руководителем предприятия, людей, обладающими какими качествами, вы хотели бы видеть своими работниками? Чтобы объяснить свой выбор предъявите конкретные факты и аргументы.
183. Если бы вам представилась возможность вернуться в прошлое, какой исторический период вы бы выбрали? Чтобы объяснить свой выбор предъявите конкретные факты и аргументы.
184. Люди познают мир разными методами: кто-то читая, кто-то слушая, а кто-то что-то делая. Какой путь познания с вашей точки зрения самый лучший? Чтобы объяснить свой выбор предъявите конкретные факты и аргументы.
185. Какой подарок может быть самым лучшим для человека? Чтобы объяснить свой выбор предъявите конкретные факты и аргументы.
186. Некоторые люди любят путешествовать с группой, а некоторые в

одиночку. Какому виду отдаете предпочтение вы? Чтобы объяснить свой выбор предъявите конкретные факты и аргументы.

187. Некоторые ученики любят получать образование в группе, а некоторые индивидуально. Какому виду отдаете предпочтение вы? Чтобы объяснить свой выбор предъявите конкретные факты и аргументы.
188. Люди слушают музыку в различное время и по разным причинам. Почему слушать музыку считается таким важным? Обоснуйте свое мнение фактами.
189. Выбирая друзей, некоторые отдают предпочтение похожим на себя, а другие – непохожим. Сравните положительные и отрицательные стороны наличия похожих и непохожих на себя друзей. А какого друга хотели бы иметь вы? Обоснуйте свои мысли.
190. Если бы у вас была возможность сделать серьёзные изменения в вашей школе, в чём бы заключались эти изменения? Обоснуйте свои мысли.
191. Некоторые люди верят, что лучший путь познания жизни это советы друзей или семьи. Другие же люди думают, что лучший способ познания жизни – личный опыт. Сравните два различных способа познания жизни. Какой способ предпочитаете вы? Обоснуйте свои мысли.
192. Кино очень популярно во всём мире. Объясните причины такой популярности и обоснуйте свою мысль.
193. Как помогает туризм взаимопониманию и общению между странами? Обоснуйте свою мысль
194. Какими качествами нужно обладать, чтобы стать хорошим ребёнком. Обоснуйте свою мысль.
195. "Спорт должен быть неотъемлемой частью школьной жизни." С какими положениями этого утверждения Вы согласны, а с какими - нет? Обоснуйте свои мысли.
196. Сравните положительные и отрицательные стороны электронных и школьных библиотек. Обоснуйте свою мысль.
197. Для чего люди должны работать? Обоснуйте свои мысли.
198. Должны ли родители принимать решения за детей или нет? Обоснуйте свои мысли.
199. Как вы считаете, какое открытие за последние 100 лет является самым важным? Обоснуйте свои мысли фактами.
200. Друзья или родители имеют большее влияние в формировании характера человека? Обоснуйте свои мысли.
201. Вы предпочитаете внутреннюю красоту или внешнюю? Обоснуйте свой выбор.
202. Объясните мысль «По одёжке встречают, по уму провожают.»
203. Как вы понимаете пословицу «Друг познаётся в беде»?

204. Творческий потенциал работников играет важную роль в развитии компании. Что должны предпринять компании, чтобы повысить творческую способность работников?
205. С увеличением числа собственных автомобилей, растёт и напряжённость на дорогах. Что должно предпринять правительство и люди, чтобы решить эту проблему?
206. В некоторых развивающихся странах растёт тенденция переселения из сёл в города. Как вы считаете, почему это происходит, какие проблемы способствуют этому?
207. Выпускникам престижных вузов гарантирована хорошая работа. Согласны ли Вы с этим мнением или нет? Обоснуйте свой ответ.
208. В настоящее время, во многих семьях, где работают оба родителя, мало времени отводится детям. С чем это связано и к каким проблемам это может привести?
209. Самый смелый поступок в вашей жизни.
210. Что бы вы хотели изменить в своём характере?
211. Мы учимся на своих ошибках или наши успехи нас чему-то учат. Обоснуйте своё мнение.
212. Использование мобильных телефонов в средней школе должно быть разрешено или запрещено. Обоснуйте своё мнение.
213. Формирование характера ребёнка связано с поведением родителей. Вы согласны с этим? Какие факторы воздействуют на характер ребёнка?
214. Занятия спортом - лучший путь к здоровью. Согласны ли Вы с этим мнением и есть ли у Вас другие предложения?
215. Прогулки очень полезны для здоровья, но люди мало гуляют. В чём причина этой проблемы и что вы можете предложить, чтобы предотвратить это.
216. Факты насилия, освещённые в средствах массовой информации, будто подталкивают людей на преступление. Что вы думаете об этом?
217. В обществе имеется проблема бездомных людей (или проблема нищеты). Что бы вы предложили, чтобы решить эту проблему?
218. Некоторые считают, что вузы должны находиться за городом. Что вы думаете об этом?
219. Некоторые считают, что деньги не являются средством, которое может сделать человека счастливым. Как вы считаете, что нужно иметь и что нужно предпринять, чтобы быть счастливым?
220. Информация в жизни людей играет важную роль, но большая часть информации связана с отрицательными событиями. Что вы думаете об этом?

# КРИТЕРИИ ОЦЕНИВАНИЯ СОЧИНЕНИЯ (ЭССЕ)

*Оценивание проводится по 5 компонентам по 10-балльной шкале.*
*Для получения оценки «зачет» абитуриенту необходимо набрать не менее 5-ти баллов.*

**A**

***Примечание: Работа оценивается в 0 баллов:***

- ***если работа не выполнена;***
- ***если в работе имеются сведения об авторе работы (его семье, родственниках, соседях, преподавателе) или имеется какой-то знак;***
- ***если работа не соответствует ни одной из предложенных тем.***

**2 балла** - объем текста более 2-х страниц (не менее 420 слов);
- части построения (вступление, основная часть и заключение) выделены абзацами.

***Примечание: Если отвечает условию двух частей, то оценивается в 2 балла.***

**1 балл** - объем текста не менее 1 страницы (2 страницы включительно, не менее 190 слов);
- сочинение считается завершенным, если в тексте есть хотя бы основная часть;

***Примечание: Если отвечает требованию двух частей, то оценивается в 1 балл.***

**0 баллов** - объем меньше 1 страницы (менее 190 слов)

***Примечание 1: Условия, предназначенные для каждого балла, должны быть полностью выполнены.***

***Примечание 2: Если вариант A оценивается в 0 баллов, соответственно варианты B, C, D, E не оцениваются и в итоге ставится 0 баллов.***

**B**

**2 балла** - сочинение полностью соответствует теме, и дана последовательность мыслей;
- выдвинуты свободные мысли, связанные с темой;

**1 балл** - охват текста удовлетворительный, но имеются некоторые отклонения, использованы мысли, не связанные с темой;
- не наблюдается последовательности в выражении мыслей;

**0 баллов** - текст не охвачен на удовлетворительном уровне, есть серьезные отклонения;
- отсутствуют свободные мысли, связанные с темой.

***Примечание: Если вариант B оценивается в 0 баллов, то варианты C, D, E не оцениваются и в итоге ставится 0 баллов***

**C**

**2 балла** - в сочинении для обоснования мысли правильно использованы цитаты, примеры (люди, приведенные в качестве примера), факты, исторические события, художественные отрывки, жизненные события или другие источники (не менее трёх);
- использованные факты и примеры полностью соответствуют теме;

**1 балл** - для обоснования мысли удовлетворительно использованы цитаты, примеры, факты, исторические факты, художественные отрывки, жизненные события или другие источники, но их количество мало (1-2) или они слабо связаны с текстом;

**0 баллов** - для обоснования мысли не использованы цитаты, примеры, факты и другие источники, или же использованные факты и цитаты не соответствуют теме.

***Примечание: Различные варианты, бейты, афоризмы и другие примеры, использованные из одних источников в различных аспектах, каждый в отдельности представляет собой факт.***

**D**

**2 балла** - в сочинении словарный запас богатый, речь выразительна и образна (использованы синонимы, эпитеты, метафора, метонимия, гипербола и т.д.), стиль оригинальный, отсутствуют неуместные повторы;

**1 балл** - словарный запас удовлетворительный, речь и стиль сухие и схематичные, слабая образность;

**0 баллов** - словарный запас слабый, речь не образная, стиль простой, используются неуместные повторы.

**E**

**2 балла** - объем текста 2 и более страницы, количество допущенных ошибок 0 – 8 (орфографические (правильное написание слов), лексические (правильное использование слов: не бросил вину на себя, а взял вину на себя), грамматические (соблюдение грамматических правил), знаки препинания (правильное использование знаков препинания, выделение на письме обращения, вводных слов, приложений и т.д.), фактические (правильное разъяснение фактов));

**1 балл** - объем текста 2 и более страницы, количество допущенных ошибок 9 – 16 (орфографические, лексические, грамматические, знаки препинания, фактические);

**0 баллов** - объем текста 2 и более страницы, общее количество допущенных ошибок 17 или больше 17 (орфографические, лексические, грамматические, знаки препинания, фактические).

**2 балла** - объем текста 1-2 страницы (2 страницы включительно ), количество допущенных ошибок 0-5 (орфографические (правильное написание слов), лексические (правильное использование слов: не бросил вину на себя, а взял вину на себя), грамматические (соблюдение грамматических правил), знаки препинания (правильное использование знаков препинания, выделение на письме обращения, вводных слов, приложений и т.д.), фактические (правильное разъяснение фактов));

**1 балл** - объем текста 1-2 страницы (2 страницы включительно), количество допущенных ошибок 6 – 10 (орфографические, лексические, грамматические, знаки препинания, фактические);

**0 баллов** - объем текста 1-2 страницы (2 страницы включительно), количество допущенных ошибок 11 или больше 11 (орфографические, лексические, грамматические, знаки препинания, фактические).

***Примечание: Повторяющиеся ошибки, присущие одним и тем же правилам языка, считаются одной (1) ошибкой.***

***Ошибки, связанные с различными пунктуационными правилами при постановке запятой, считаются различными.***